

■ Sevinc Elsevər

barı sevimli serial qəhrəmanının həyatı
qaydasına düşmürdü
ekrandakı qadın da özü kimi gücsüzdü
özü kimi qorxaqdı
gücü mətbəxdəki bıçaq, çəngəl, qaşığı
möhkəmdən bir-birinə çırpmağa çatırdı
axşam yeməklərini hazırlamazdan qabaq
bıçaqları bir-birinə hirslə sürtüb itiləyirdi
dişlərini bir-birinə sıxaraq
"başını kəsərəm!" - sözləriylə
uşaqlarının gözü önündə
hər gün təhdid olunan qadın

## YAĞIŞ, BÜLBÜL VƏ MƏN

yağışın səsinə oyanmışam
gecə yarısına az qalmış
bülbül səsi də gəlir
budaqları pəncərəmə toxunan ağacdan
yağış bülbülü də oyatmış
nəğmə oxuyur indi
yağışa, ağaca, mənə
və ağlımıza gəlməyən başqa kimsələrə...
yuxum qaçıb
düşünürəm...
xəyalımdan keçən adamlar
necə soyuq
necə səssizdirlər
mavi və uzaq ekrandakı kimidirlər
kaş onlara da bu yağışın səsini
bülbülün nəğməsini duyura bilsəm...

## 2020-Cİ İLİN BAHARI

bahar gəlib
ancaq
həyətlərdən evlərə yığışıblar uşaqlar
uşaqların səsi quşların səsinə qarışardı bir vaxtlar
pəncərəmin altında
quşlar civildəşirlər arın-arxayın
arabir pəncərəmin qabağına qonurlar

qapıları həmişəkindən möhkəm döyür
tələsik evlərinə qayıdan qonşularım
sanki dallarınca düşüb izləyirlər onları
qapıları daha möhkəm döyür adamlar
diksinir evlərdə uşaqlar
pəncərələrdə quşlar...

* * *

*Karantin boyu məktəb pəncərələrində*
*qalan güllərə ithaf olunur*

Balaca şahzadələr
tərk edib getdilər gülləri
sinif otaqlarının pəncərələrində
saralıb-soldu güllər gündən-günə
əvvəl gözlərinin kökü saraldı
yol gözləyə-gözləyə
sonra
yarpaqları, çiçəkləri, kökləri saraldı
koronovirus qurbanı oldular güllər də
balaca şahzadələrin tez qayıdacağına inanırdılar
"su, su" deyə-deyə qızdırmadan yandılar...

* * *

bir vaxtlar sinəmizə bərkidilməmişdi ürəyimiz
kəpənəyin arxasınca qaça
quşların ardınca qanadlana bilirdi
bir çiçəyin qoxusunun dalınca atlanırdı yerindən
sevimli dodaqlardan adımız qopunca
hoppanıb çıxırdı yuvasından
gözəl musiqilər çalan musiqi qutusu idi ürəyimiz
ona uzanan pis əllər
vintini kobudluqla bura-bura
möhkəmdən sıxa-sıxa
incidərək
ağrıdaraq bərkitdilər ürəyimizi
elə bərkidi ki
yerindən tərpənə bilmədi
nəğmələri uçub getdi
sinəmiz yuva yox, qəfəs oldu ürəyimizə
atlanmadı ürəyimiz
nə bir çiçəyə görə
nə uçub nənəmizin dalınca gedən
parübüzən böcəyinə görə...

## ƏTÇƏKƏN MAŞIN

pis işləyən ət maşınıyla
girinc qalan qadın
həyatın nə qədər çətin olduğunu düşünür
qadın olmağın ağırlığını
bütün gün mətbəxdə qurdalanmağının
ona qarşı haqsızlıq olduğunu
bayırda güllər açmışkən
günəş torpağı qucmuşkən
dörd divar arasına sıxışıb qalmağını
düşünür acı-acı...
ancaq hardansa insaf düşür ürəyinə birdən-birə
ətini çəkdiyi heyvana daha
böyük zülm olunduğunu salır yada
utanır əzablarından
səhər qəssabxananın önündə bu heyvanı
dipdiri gördüyünü xatırlayır bir də
yamyaşıl otlardan kənarda
boğazından bağlanmışdı yoğun bir kəndirlə
günəş üstünə şəfəq saçırdı tükənməz şövqlə...

* * *

gah zəlzələ qorxusuyla
gözünü çilçırağa dikib oturmaqdı
gah eləcə işığa baxmaqdı
sevgi
gözlər altını çəkir

Kaspi 2020.- 16-18 may.- S.15.